# "Dilimiz milli kimliyimizdir" adlı tədbir

**YAP Yasamal rayon təşkilatı və Yasamal Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində 1 Avqust - Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü ilə əlaqədar "Dilimiz milli kimliyimizdir" adlı tədbir keçirilib.**



Tədbirdə YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, Yasamal Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Nazilə Rəhimova, "H.Cavid pr.31" ünvanı üzrə ərazi partiya təşkilatının sədri, AMEA Dilçilik İnstitutunun Terminologiya şöbəsinin müdiri Sayalı Sadıqova, "H.Cavid pr.25" ünvanı üzrə ərazi partiya təşkilatının sədri, Azərbaycan Texniki Universitetinin Humanitar fənlər kafedrasının müdiri Həbib Mirzəyev, YAP Yasamal rayon təşkilatının əməkdaşları, ərazi partiya təşkilatlarının sədr, sədr müavinləri, partiya üzvləriiştirak ediblər.

Rəsmi hissədən öncə YAP Yasamal rayon təşkilatının inzibati binasında yerləşən Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb.

Sonra Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, Azərbaycan dili minilliklərə söykənən tarixi ilə türk dilləri ailəsinin ən qədim və zəngin qollarından biridir. Azərbaycan dilinin qorunması və inkişafında Ulu Öndər Heydər Əliyevin tarixi xidmətləri danılmazdır. Ümummilli Lider 1978-ci ilin aprelində Azərbaycan SSR Konstitusiyasına Azərbaycan dilinin dövlət dili kimi daxil edilməsinə nail oldu. Bu addım milli-mənəvi kimliyimizin və dilimizin hüquqi təminatı baxımından dönüş nöqtəsi idi. Müstəqillik illərində də Ulu Öndərin dil siyasəti dövlət quruculuğu strategiyasının ayrılmaz hissəsi olub. O, 2001-ci ilin 18 iyun tarixində "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" və həmin il avqustun 9-da imzaladığı "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" fərmanlarla ana dilimizin qorunmasına mühüm töhfələr verib. Onun siyasi xətti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin 2004-cü ildə latın qrafikalı kütləvi nəşrlərlə, Azərbaycan Milli Ensiklopediyasının nəşri ilə, eləcə də dünya ədəbiyyatı nümunələrinin Azərbaycan dilində çapı ilə bağlı sərəncamları, ana dilimizin geniş tətbiqini təmin edib. 2013-cü ildə qəbul edilən Dövlət Proqramı, Azərbaycan dilinin qloballaşma şəraitində qorunmasını və dilçilik sahəsində elmi tədqiqatların dəstəklənməsini hədəfləyib. 2018-ci ildə imzalanmış müvafiq sərəncamlar isə dilimizin elektron məkanda istifadəsinin genişləndirilməsi və saflığının qorunması istiqamətində yeni mərhələ açıb.

Yasamal Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Nazilə Rəhimova vurğulayıb ki, 1 Avqust - Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü milli varlığımızın qorunması baxımından strateji əhəmiyyət daşıyır.

Bu tarix Azərbaycan xalqının ana dilinə verdiyi dəyərin, dil uğrunda göstərilən fədakarlığın rəmzidir. Ulu Öndər Heydər Əliyevin sovet dönəmində belə, dilimizin hüquqi müdafiəsini təmin etməsi əsl siyasi cəsarət nümunəsi idi. Onun təşəbbüsü ilə Konstitusiyada "Azərbaycan dili dövlət dilidir" müddəasının yer alması milli qürur mənbəyidir. Ana dilimiz bu gün də dövlət siyasətinin əsas istiqamətlərindən biri olaraq diqqət mərkəzindədir.

"H.Cavid pr.31" ünvanı üzrə ərazi partiya təşkilatının sədri, AMEA Dilçilik İnstitutunun Terminologiya şöbəsinin müdiri Sayalı Sadıqova bildirib ki, 1 Avqust - Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü ölkəmizin milli-mənəvi dəyərlərinin təntənəsi kimi qeyd olunur. Bu mühüm tarix Ümummilli Lider Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanı ilə təsbit olunub. Latın qrafikalı əlifbaya keçid Azərbaycanın müstəqillik yolunda atdığı mühüm addımlardan biri oldu. Ulu Öndərin təşəbbüsü ilə milli dilimizin inkişafı, hüquqi müdafiəsi və ictimai həyatın bütün sahələrində tətbiqi təmin edildi. Hələ 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasına dövlət dili haqqında müddəanın daxil edilməsi Ulu Öndərin dilə və millətə sədaqətinin göstəricisi idi. Ümummilli Lider Heydər Əliyev üçün dil yalnız ünsiyyət vasitəsi deyil, xalqın varlığı və şərəf məsələsi idi. Məhz bu yanaşma nəticəsində Azərbaycan dili müstəqil dövlətin başlıca atributlarından birinə çevrildi. Dahi liderin dil siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ana dilimizin elektron məkanda, təhsil, mədəniyyət və informasiya mühitində geniş tətbiqi istiqamətində də mühüm qərarlar verilib. Latın qrafikalı əlifbanın tətbiqi milli kimliyimizin qorunması və qloballaşma qarşısında dirəniş simvoludur. Bu gün Azərbaycan dili həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə yüksək nüfuza malikdir. Ana dilini sevən, ona sahib çıxan xalq heç vaxt məğlub olmaz. Bu gün hər bir vətəndaşın borcu Ulu Öndərin miras qoyduğu dəyərlərə sadiq qalmaq və ana dilini qoruyub gələcək nəsillərə ötürməkdir.

"H.Cavid pr.25" ünvanı üzrə ərazi partiya təşkilatının sədri, Azərbaycan Texniki Universitetinin Humanitar fənlər kafedrasının müdiri Həbib Mirzəyev qeyd edib ki, Azərbaycan dilinin və əlifbasının müstəqil dövlət quruculuğundakı rolu danılmazdır. 1 Avqust tarixinin Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunması xalqımızın milli kimliyinə, mənəvi dəyərlərinə dərin hörmətin nümunəsidir. Ana dilimiz müstəqillik rəmzidir, dövlət suverenliyinin simvoludur. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sahədə qəbul edilən proqram və sərəncamlar dilimizin inkişafına yeni mərhələ gətirib. Hər il çap olunan latın qrafikalı nəşrlər, dilin saflığının qorunmasına yönəlmiş tədbirlər bu siyasətin davamlılığını göstərir. Azərbaycan dili bizim milli sərvətimizdir və onun qorunması dövlət siyasətinin prioritetidir. 1 Avqust bizə bu milli sərvətin dəyərini bir daha xatırladır.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib və xatirə şəkli çəkdirilib.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika .- 2025.- 20 iyul (№ 156).- S.4.